# BƏXTİYAR VAHABZADƏNİN HİKMƏTLİ KƏLAMLARI



Əsərləri aforizmlərlə zəngin olan Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri də Bəxtiyar Vahabzadədir. O, çağdaş Azərbaycan ədəbi-bədii, ictimai-siyasi həyatında tanınmış şəxsiyyətlərdən biri olub. Onun yaradıcılığı folklorla yaxından bağlı, xalq ruhuna yaxındır. Şairin yaradıcılığı yaşadığı dövr, düşdüyü mühit, nəfəs aldığı ictimai-siyasi abı-hava ilə ayrılmazdır. Bəxtiyar Vahabzadə milli keçmişimizə, tariximizə, doğma Vətəninə, dilimizə, mədəniyyətimizə, folklorumuza və yazılı ədəbiyyatımıza dərin köklərlə bağlı olub, bənzərsiz və rəngarəng yaradıcılığı ilə seçilən sənətkarlardandır. O, əsərlərində folklordan, xalq hikmətlərindən yetərincə bəhrələnməklə yanaşı, onlardan yeri gəldikcə həm öz əsərlərində istifadə edib, həm də bu gün dillər əzbəri olan çox gözəl, dəyərli aforizmlər, hikmətli sözlər yaradıb. Aforizmləri, xalq hikmətlərini, hikmətli kəlamları şeirin poetik dilinə uydurmaq və ya fikrin ifadəsində bənzər söz seçimi ilə tarazlaşdırmaq onun ustalığından, bacarığından xəbər verir.

**Bəxtiyar Vahabzadənin kəlamlarını sizə təqdim edirik:**

*Qılınc bu gün varsa, sabah pas tutar,*
*Sözünsə qılıncı həmişə parlar.*

*Əgər ana ürəyinə toxunsan,*
*Quş yuvası dağıdırsan elə bil.*

*Nəsənsə, özün ol, Kökündən yapış!*
*Dünənə arxalan, Bu gündən yapış!*

*Mən tək olan zaman fikirlərimin*
*Hər biri yanımda bir adam olur.*

*Nə qədər zirvəyə qalxıb ucalsan,*
*Sən qalxan zirvəyə enən deyiləm...*

*Əslimi, nəslimi tanıyıram mən,*
*Qarışıq deyiləm, özümdən hürkəm.*
*Sən kimsən, sən nəsən, özün bilərsən,*
*Mən ilk qaynağımdan türk oğlu türkəm!*

*Vətən borclu deyil, biz borcluyuq Vətənə.*

*Keçmişinə daş atanın gələcəyinə güllə atarlar.*

*Düzlük istəyənin ən əvvəl özü,*
*Əgər düz olmasa; vay o düzlüyə!*

*Hamıya bəllidir savab işlərim-*
*Amma günahlarım tək mənə bəlli.*[1]

*Cavanlıqda –*
*Əllər uzun, dillər qısa.*
*Qocalıqda –*
*Dillər uzun, əllər qısa.*
*Cavanlıqda –*
*Günlər qısa, illər uzun.*
*Qocalıqda –*
*Günlər uzun, illər qısa.*

*Hörmət hörmətini itirdi bir gün,*
*Əyrilik düzlüyün oldu kölgəsi.*

*Özgə qapısına daş atan – azğın,*
*Sən özgə daşını özünə atdın.*
*Özgəyə qənimi çox eşitmişik,*
*Özünə qənimi sənmi yaratdın?*

*Fikir bir gəmi ki, bilinmir yönü,*
*Çırpınır, çıxammır ancaq sahilə.*

*Eyni gündə doğulur hər qıfıla bir açar,*
*Qıfıl varsa, açar var,*
*Sual varsa, cavab var.*

*Ey Vətən oğlu, düşün, bil ki, sənindir bu Vətən,*
*Sabahın, həm bu günün, həm dünənindir bu Vətən*

*Vətən uğrunda ölənlər ölümündən doğular.*

*Biz Vətən məcnunu, el aşiqi, sülh əsgəriyik*
*Biz Vətən naminə ölsək, dirilərdən diriyik.*

*Ümidlə bir olanda*
*Həyat bizə bal dadır.*
*O, aldadıb yaşadır,*
*O, yaşadıb aldadır.*

*Tufansız ürəklər durğun göl kimi,*
*Suyu təzələnməz, Dibi lillənər.*

[1] https://az.baku-art.com/az/bextiyar-vahabzadenin-hikm-tli-k-lamlari

*Cəsarət çətindir, ehtiyat asan,*
*Qorxudur alçaldan, axı, hər kəsi.*
*Cürətdən qorxmayaq qorxaq qorxudan*
*Qorxu - itaətin dayaq nöqtəsi!*

*Ehtiyat güdəndə, sözün gülləsi*
*Həmişə hədəfdən didərgin düşür.*

*Olursunuz, duman olun,*
*sis olmayın,*
*Nədə xəsis olsanız da*
*Sevgidə xəsis olmayın!*

*Yazıq o kəsə ki, yoxdur bir şeyə*
*Nə sonsuz nifrəti, nə məhəbbəti!*

*Şair - fikirlərin çırpınan seli,*
*Şair - həqiqətin müğənnisidir.*
*Şair - təbiətin danışan dili,*
*Şair - cəmiyyətin üsyan səsidir.*

*Şair - zəmanənin, əsrin vicdanı,*
*Şair - tarixlərin şərəfi, şanı,*
*Şair - bu dünyaya zamanın sözü,*
*Şair - həqiqətin, haqqın güzgüsü!*

*Dünyada hər şeyin bütövü gözəl,*
*Yanmçıq səadət düşmənin olsun.*
*Mənə qəm versən də, yarı bölmə, gəl,*
*Sevinc verirsənsə... qoy yəqin olsun.*

*Gözləri görməyən kor deyil hələ,*
*Görmək istəməyən kordur, deyərdim.*
*Belə müqəvvaya, belə cahilə*
*Həyatın özü də gordur deyərdim.*

*Yaradıbdır inam məni,*
*Mən inamın övladıyam.*

*Yaşamaq yanmaqdır, yanasan gərək,*
*Həyatın mənası yalnız ondadır.*
*Şam əgər yanmırsa, yaşamır deməg,*
*Onun da həyatı yanmağındadır!*

*Kölgədə yatanların*
*Öz kölgəsi yox olur...*

*Bu dil, - bizim ruhumuz, eşqimiz, canımızdır,*
*Bu dil, - bir-birimizlə əhdi-peymanımızdır.*

*İnsandır hər şeyi mənalandıran,*
*Saat nə gərəkdir zaman olmasa.*
*Bir dağın, bir çayın gözəlliyini,*
*Söyləyin, kim duyar insan olmasa.*

*Ölülər diridir, dirilər ölü,*
*İstidir dünyanın odundan külü.*

*Belə getsə, ölülər,*
*Mürdəşiri yuyacaq.*

*Haqdan da, zülmdən də*
*Yenə zülüm doğulur.*
*Həm haqqın, həm də zülmün*
*Təzə dəyirmanında*
*Üyüdülən haqq olur.*